# Tarixi şansdan imtina etmək ermənilləri uçuruma aparır

## Qarabağın erməni icması Hayastan hakimiyyətinin oyununa gedir

**Ermənistanın riyakarlığı atdığı hər addımda özünü göstərir. Vətən müharibəsindəki məğlubiyyətlərindən sonra Azərbaycan tərəfindən onlara sülh təklif olunsa da, haylar özünə havadar axtarışına çıxaraq sazişin bağlanmasını mümkün qədər uzatmağa çalışıb.**

Cənubi Qafqazda uzun illər gərginliyin qalmasında maraqlı olan dairələr indi də erməniləri qızışdıraraq regionda sülhün təmin olunmasının qarşısını almağa çalışırlar. Xaricdəki müəyyən siyasi dairələr Ermənistanın "humanitar fəlakət" şousuna dəstək verərək Azərbaycan əleyhinə kampaniya aparır, ölkəmizlə bağlı qərəzli bəyanatlar verirlər. Bu isə işğalçı Ermənistanın sülhdən yayınmasına imkan yaradır. Elə bunun nəticəsidir ki, Qarabağda yaşayan ermənilər son anda Yevlax görüşündən imtina etdilər. Çünki sona qədər Qərbin, müəyyən siyasi dairələrin onlara dəstək olacağına ümid bəsləyirlər. Amma unudurlar ki, regionda yeni reallıq yaradan Azərbaycan daxili işlərinə heç kimin qarışmasına imkan verməyəcək. Region dövləti olaraq Ermənistanın gələcəyi yalnız Azərbaycanla sülhdən keçir.

Azərbaycan XİN-in yaydığı bəyanatda bildirilib ki, Yevlaxda Azərbaycanın xüsusi nümayəndəsi və yerli erməni sakinlərinin nümayəndələri arasında görüşün keçirilməsi, Qarabağ bölgəsinə humanitar yüklərin müxtəlif marşrutlarla çatdırılması barədə razılıq əldə olunsa da, avqustun 5-də Ermənistan öz qondarma rejimi vasitəsilə siyasi motivli, qeyri-qanuni şərtlər və müxtəlif bəhanələr irəli sürməklə bundan son anda boyun qaçırıb. Əgər Ermənistan və onun tabeliyindəki qondarma "qurum" razılaşmaya əməl etsəydi, məsələ avqustun əvvəlində, Qarabağ bölgəsinin sakinlərinə humanitar yüklərin çatdırılması, habelə insanların, malların və nəqliyyat vasitələrinin keçməsi üçün marşrutların asanlaşdırılması ilə bağlı məqbul çərçivənin təmin edilməsi ilə həll olunardı.

### Ermənistanın məqsədi Azərbaycanın sərhəd bütövlüyünü pozmaqdır

Milli Məclisin deputatı Aydın Mirzəzadə qəzetimizə açıqlamasında deyib ki, Ermənistan və ermənilərin Yevlax görüşündən, həmçinin yüklərin Ağdam-Xankəndi yolu ilə daşınmasından imtina etməsi onların siyasi riyakarlığını, sülhə getmədiklərini göstərir. Ermənistanın məqsədi məsələni həll etmək deyil, sülhdən yayınmaq üçün guya hansısa problemin olduğu görüntüsünü yaratmaqdır: "Təsadüfi deyil ki, ermənilərin təsiri altında olan xaricdəki müəyyən siyasətçilər məsələnin mahiyyətinə varmadan Azərbaycana qarşı qərəzli çıxışlar edir, Qarabağ iqtisadi zonasında yaşayan erməni icmasının guya humanitar fəlakətdə olduğu barədə bəyanatlar verirlər. Bu, necə humanitar fəlakətdir ki, insanlar orada normal yaşayır, problemlərini həll edir və hansısa çətinlik çəkmirlər? Eyni zamanda Laçın yolundan şəffaf şəkildə istifadə edirlər. Ermənistanın istədiyi odur ki, Azərbaycanın sərhəd bütövlüyünü pozsun, nəzarət olmadan əraziyə giriş-çıxış onların əlində olsun".

A.Mirzəzadənin sözlərinə görə, Ermənistan üç il ərzində Laçın yolundan Azərbaycan ərazisinə hərbi kontingenti və yükləri daşıyaraq hərbi hissələrimizə, dinc yaşayış məntəqələrimizə qarşı təxribatlar törədiblər. Azərbaycanın təmkinli davranışına, normal qonşuluq münasibəti qurmaq üçün beynəlxalq hüquqa söykənən təşəbbüslərinə baxmayaraq, Ermənistan hələ də konstruktiv mövqe tutmur. Onların düşüncəsi hələ də qonşu dövlətlərin torpaqlarını əsassız iddiadan ibarət cəfəng fikirlərlə doludur. Belə görünür ki, onlar 27 sentyabr 2020-ci ildən əvvəlki vəziyyətə qayıtmaq istəyirlər. Ancaq unudurlar ki, bu, onlara baha başa gələr, çünki Azərbaycan suveren hüquqlarını həyata keçirib və bundan sonra da keçirəcək.





Azərbaycanın ərazi bütövlüyünü heç kəsə güzəştə getməyəcəyini vurğulayan deputat bildirib ki, dövlətimiz kiməsə onun daxili işlərinə qarışmağa imkan verməyəcək: "Qarabağda yaşayan erməni sakinlər Azərbaycanın digər vətəndaşları kimi hüquq və azadlıqlara malik ola bilərlər. Azərbaycan bunu dəfələrlə bəyan edib. Prezident İlham Əliyev milli maraqlarımızı daim dünya birliyinə çatdırır. Azərbaycan beynəlxalq aləmdə nailiyyəti ilə sivil, demokratik dövlət olduğunu göstərir. Ermənistan vəziyyətdən nəticə çıxarmalı və bilməlidir ki, Azərbaycan heç bir zaman kiməsə suverenliyinə, daxili işlərinə qarışmağa imkan verməz".

### Ermənistan təcavüzkar niyyətindən əl çəkmir

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qeyd edib ki, son günlər müşahidə olunan situasiya və Qərbin riyakar davranışları əslində dəyişən heç nəyin olmadığını göstərir. Belə ki, Ermənistan təcavüzkar niyyətindən əl çəkməyib, Qərb isə regionda sülh və sabitlik istəmir və ötən 30 ildə mövcud münaqişəli vəziyyətin davam etməsində maraqlıdır: "Azərbaycanın müharibədə qələbəsi və cənab İlham Əliyevin qətiyyəti ilə formalaşan postmüharibə reallığı regionumuzu heç vaxt olmadığı qədər sülhə yaxınlaşdırıb. Lakin Laçın sərhəd-buraxılış məntəqəsi ətrafında ermənilərin humanitar fəlakət şousu yaratması göstərir ki, İrəvan reallıqla barışmayıb, Qərb isə bu vəziyyətə xaç yürüşü başlamaq üçün fürsət kimi baxır".

Deputatın sözlərinə görə, son günlər Qərb mediasında, 3-cü sektorda və muzdlu siyasi dairələrdə başlanan anti-Azərbaycan kampaniyası, Azərbaycanın ərazi bütövlüyünü və suveren hüquqlarını görməzdən gəlmə cəhdləri bunu bir daha sübut edir. Qərb 30 il işğala və təcavüzə birbaşa və ya dolayısı yolla dəstək verdiyi kimi bu gün də eyni addımı atır, regionda sülh və birgəyaşayışa hər vəchlə mane olmağa çalışır. Təsadüfi deyil ki, məhz başlanan anti-Azərbaycan kampaniyasından qısa müddət öncəyə qədər ümidlərini itirib təslimçi ruhda olan separatçılarda "özgüvən" yaranıb, qorxudan çıxışların rabitəsini itirmiş separatçı Arayik Arutyunyan artıq Azərbaycan əleyhinə bəyanatlar verməyə başlayıb.

Deputat bildirib ki, Ermənistan hakimiyyətinin fitvası ilə Qarabağın erməni icmasının nümayəndələri onlar üçün tarixi şans olan və Yevlaxda nəzərdə tutulan görüşdən imtina edib. Lakin sirr deyil ki, heç bir kampaniya əbədi davam edə bilməz və Azərbaycana "beynəlxalq təzyiq" də tədricən "effekt"ini itirəcək. Hazırda da əsl niyyəti ifşa olunur. Arayik Arutyunyanın minnətdarlıqla istinad etdiyi beynəlxalq təxribatların fiaskosu, BMT-nin bir qrup ekspertinin, Beynəlxalq Ədalət Məhkəməsinin sabiq baş prokuroru Luis Moreno Okamponun hesabatının kağız parçasından başqa bir şey olmadığı göz önündədir. Belə olan halda Qarabağ erməniləri bir daha düşünməli və cənab İlham Əliyevin ötən il Zəfər günündə Şuşadan verdiyi bəyanatı unutmamalıdırlar: "Heç kim gəlib onların yerinə döyüşməyəcək, nə fərari Ermənistan, nə də regionda təsir gücü yalnız bəyanatlarla məhdudlaşan Qərb dairələri..."

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 15 avqust.- S.3.